*Azərbaycan Bank Tədis Mərkəzi*

# İ l l i k  H e s a b a t

# 2008

**Uğurlu biznesə bilik yolu ilə**

## *Müşahidə Şurası Sədrinin müraciəti*

**Eldar İsmayılov**

**ABTM-nin Müşahidə Şurasının Sədri,**

**Azərbaycan Banklar Assosiasiyasının Prezidenti**



**Hörmətli oxucular!**

Azərbaycan Banklar Assosiasiyası ölkəmizin bank-maliyyə sektoru üçün kadr hazırlığını, bank mütəxəssislərinin peşəkarlıq səviyyəsini yüksəltmək işini öz törəmə təşkilatı olan Azərbaycan Bank Tədris Mərkəzi vasitəsi ilə həyata keçirir və bu sahədəki ortaq fəaliyyət 2008-ci ildə də uğurla davam etdirilmişdir.

2000-ci ildən etibarən Mərkəz ölkə iqtisadiyyatının öncül sahələrindən olan bank sektorunda həyata keçirilən islahatları təşkil etdiyi və apardığı təlimlərlə, göstərdiyi məsləhət xidmətləri ilə dəstəkləmiş, banklarda korporativ idarəetmənin təkmilləşdirilməsinə, peşəkar kadr potensialının formalaşmasına əhəmiyyətli töhfə vermişdir.

Hər il olduğu kimi, ötən ildə də Mərkəz yeni təlim və məsləhət xidməti məhsulları hazırlamış, 116 təlim kursu keçirmiş və bu kurslarda 1 847 dinləyici iştirak etmişdir.

2008-ci il ABTM üçün xüsusilə onunla əlamətdar olmuşdur ki, Mərkəz "Bank işinin əsasları üzrə Avropa Sertifikatı" proqramı üzrə akkreditasiyadan keçmişdir. Bu, bank işi üzrə Avropada ABTŞ (Avropa Bank Tədris Şəbəkəsi) tərəfindən sertifikatlaşdırılmış yeganə proqramdır. Tətbiqinə 2009-cu ildən başlanılacaq bu proqram Azərbaycan banklarına imkan yaradacaqdır ki, onların əməkdaşları bank işinin əsasları üzrə Avropa bank cəmiyyəti tərəfindən də tanınan sertifikat alsınlar.

Ötən ildə ABTM "Beynəlxalq Maliyyə Hesabatlılığı Standartları" mövzusunda yeni uzunmüddətli təlim proqramı hazırlayaraq tətbiq etmiş və bir çox bankların baş mühasibləri bu təlim proqramını müvəffəqiyyətlə başa vuraraq müvafiq sertifikat əldə etmişlər. Ümidvaram ki, qlobal maliyyə böhranı şəraitində bank idarəçiliyinin xüsusiyyətlərini də nəzərə almaqla, Mərkəz orta və uzunmüddətli peşəkar təlim proqramları hazırlamaq işini bu il də davam etdirəcəkdir.

Bu il Azərbaycan bank icması ABTM-in 10 illik yubileyini qeyd edəcəkdir. Xüsusi vurğulamaq istərdim ki, yaranışından keçən bu müddət ərzində Azərbaycan Bank Tədris Mərkəzi yüksək peşəkarlığı ilə seçilən, vahid bir komanda kimi işləməyi bacaran ekspert kollektivi formalaşdıra bilmişdir. Əminəm ki, ABTM həm bu nailiyyətini, həm də bütün digər uğurlarını qarşıdan gələn illərdə də qoruyub saxlayacaq və ölkəmizdə bank sektorunun inkişafına dəyərli töhfələr verməkdə davam edəcəkdir.

# ABTM-nin TARİXİ

Azərbaycan Bank Tədris Mərkəzi Azərbaycan Banklar Assosiasiyasının törəmə müəssisəsi olaraq, Avropa Birliyinin TACIS proqramının köməyi ilə yaradılmış və 2000-ci ilin fevral ayından fəaliyyət göstərir.

Keçən 9 il ərzində ABTM özünün inkişafının 2 mərhələsini uğurla başa vurmuş və artıq üçüncü mərhələyə qədəm qoymuşdur. Birinci mərhələni əhatə edən 2000-2003-cü illərdə ABTM institusional olaraq yaradılmış, tədris və məsləhət xidmətləri bazarına daxil olmuşdur.

Fəaliyyət dövrünün ikinci mərhələsi olan 2004-2006-cı illərdə ABTM bazar mövqeyini möhkəmləndirmiş, kommersiya bank işi üzrə tədris və məsləhət xidmətləri ilə yanaşı, biznesin idarə edilməsi üzrə tədris, habelə Dövlət müəssisələrinə məsləhət xidmətləri göstərməyə başlamışdır.

ABTM-nin 2007-2009-cu illəri əhatə edən üçüncü strateji inkişaf mərhələsinin ikinci ili olan 2008-ci ildə qısamüddətli ixtisasartırma təlim kursları və geniş çeşidli məsləhət xidmətləri ilə yanaşı, Mərkəz bank işi üzrə Avropada hələlik yeganə akkreditasiya proqramı olan "Bank İşinin Əsasları üzrə Avropa Sertifikatı" proqramı üzrə akkreditasiyadan keçmiş, mühasibat uçotu sahəsində ölkədə aparılan islahatları dəstəkləmək üçün "Beynəlxalq Maliyyə Hesabatlılığı Standartları" mövzusunda uzunmüddətli təlim proqramı hazırlayaraq həyata keçirmiş, "Ümumi Bank İşi" və "Beynəlxalq Diplomlu Peşəkar Mühasib" mövzusunda uzunmüddətli təlim proqramları üzrə kurslar keçirməyi davam etdirmişdir.

Hesabat dövründə, ABTM kommersiya bank işi və biznesin idarə edilməsi üzrə 1847 dinləyicinin iştirak etdiyi 116 kurs keçirərək, Azərbaycanın ən böyük təlim müəssisəsi mövqeyini qoruyub saxlamışdır.

Yarandığı ilk gündən geniş beynəlxalq əlaqələr qurmuş ABTM Dünya Bankı (WB), Beynəlxalq Maliyyə Korporasiyası (IFC), Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyi (USAID), Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi (JICA), Almaniya Texniki Yardım Agentliyi (GTZ), Almaniya İnkişaf Bankı (KFW), bp Neft Şirkəti ilə yanaşı, keçən il İslam İnkişaf Bankının xidmətlərin göstərilməsi üzrə elan etdiyi tenderin qalibi seçilməklə, bu mötəbər beynəlxalq qurumla da əməkdaşlıq əlaqələri qurmuşdur.

Fəaliyyətinin ikinci ilindən özünümaliyyələşdirmə prinsipləri ilə işləyən ABTM-nin gəlirləri keçən il 2007-ci illə müqayisədə 44% artaraq, son 9 ildə ən yüksək həddə 603 min manata çatmışdır.

ABTM hal-hazırda Avropa Yaşlıların Təhsili Assosiasiyası, Avropa Bank Tədrisi Şəbəkəsi və Azərbaycan Sahibkarlar Konfederasiyasının üzvüdür.

# ABTM-nin STRATEGİYASI

### *Vizion*

*ABTM-nin qısa strateji baxışı (vizionu) onu kommersiya bank işi əsas prioritet olmaqla, biznesin idarə edilməsi sahəsində Azərbaycanda yüksək keyfiyyətli, eləcə də beynəlxalq sertifikasiya və akkreditasiyaya malik tədris və məsləhət xidmətləri göstərən lider təşkilat etməkdən ibarətdir.*

ABTM-nin strateji baxışında nəzərdə tutulmuş hədəfə çatmaq üçün keçən 2008-ci ildə ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) maliyyələşdirdiyi və ABŞ-ın ACDI/VOCA təşkilatının icra etdiyi "Maliyyə sektorunun inkişafı vasitəsi ilə kiçik və orta sahibkarlığa dəstək" layihəsinin köməyi ilə Avropa Bank Tədrisi Şəbəkəsi (EBTN) tərəfindən "Bank işinin əsasları üzrə Avropa Sertifikatı" proqramı üzrə akkreditasiyadan keçmişdir.

### *Missiya*

*ABTM-nin məramnaməsi Azərbaycan Respublikasında biznes fəaliyyəti ilə məşğul olanlara daimi əsasda qabaqcıl nou-haunu Azərbaycana gətirib, yerli şəraitə uyğunlaşdırmaqla və ona əlavə dəyər verərək, yüksək keyfiyyətli tədris və professional məsləhət xidmətləri göstərməkdir.*

ABTM yarandığı gündən öz missiyasına sadiq qalaraq, kommersiya bank işi və biznesin idarə edilməsi sahəsində müxtəlif ölkələrin qabaqcıl təcrübələrini Azərbaycana gətirərək onları yerli şəraitə uyğunlaşdırır. Bunun üçün hətta bir çox hallarda məhz Azərbaycanın iqtisadi tarixi, milli mentaliteti və adət-ənənəsinə uyğun idarəetmə vərdişləri formalaşdırılmasına kömək üçün eyni bir mövzu üzrə müxtəlif ölkələrdən ekspertlər cəlb edir və yerli ekspertlərini xaric ölkələrə təcrübə mübadiləsinə göndərir.

# *ABTM-nin Direktorunun müraciəti*

**Cavanşir Abdullayev**

**Azərbaycan Bank Tədris Mərkəzinin Direktoru**



***Hörmətli təsisçi və biznes tərəfdaşları!***

Çox məmnuniyyətlə, hər il olduğu kimi, Azərbaycan Bank Tədris Mərkəzinin 2008-ci ildəki fəaliyyəti barədə Sizə qısa hesabat vermək istərdim.

Kommersiya bank işi və biznesin idarə edilməsi sahəsində dünyanın qabaqcıl nou-housunu Azərbaycana gətirərək, onu yerli şəraitə uyğunlaşdırmaqla biznes tərəfdaşlarına yüksək keyfiyyətli tədris və məsləhət xidmətləri göstərməyi özünün missiyası elan etmiş ABTM-nin fəaliyyəti keçən 2008-ci ildə də çox uğurlu olmuşdur.

Keçən 2008-ci il ABTM-nin fəaliyyəti həm biznes tərəfdaşlarının əhatəsinin artırılması və yeni xidmət növlərinin yaradılması, həm də beynəlxalq əməkdaşlığın genişləndirilməsi nöqteyi-nəzərdən uğurlu illərdən biri olmuşdur.

2007-2009-cu illər üçün nəzərdə tutulmuş strategiyasına uyğun olaraq, ABTM 2008-ci ildə uzunmüddətli təlim proqramları hazırlanmasını davam etdirərək, “Beynəlxalq Maliyyə Hesabatlığı Standartları” mövzusunda kurs proqramını hazırlayıb, bazara təqdim etmiş, “Bank işinin əsasları üzrə Avropa sertifikatı” proqramı üzrə təlim materiallarının əsas hissəsini tamamlamışdır.

Hesabat dövründə ABTM Turanbankda təşkilatı struktur, insan resurslarının idarə edilməsi, Əmrahbankda korporativ idarəetmə, Turanbank, Azərbaycan İnvestisiya Şirkətində və Azərbaycan Beynəlxalq Mədən Əməliyyat Şirkətində insan resurslarının idarə edilməsi, FİNCA-Azərbaycan qeyri-bank kredit təşkilatının əsas proqramın strukturunun Azərbaycan Mərkəzi Bankının hesablar planına uyğunlaşdırlması, Veysəloğlu MMC-də maliyyə menecmenti işinin təkmilləşdirilməsi, Bank Standard, Azərbaycan Sənaye bankı, Turanbank və Əmrahbankın əməkdaşlarının bilik səviyyəsinin test vasitəsi ilə qiymətləndirilməsi və digər layihələri həyata keçirmişdir.

2008-ci ildə ABTM 5 yeni tədris məhsulu hazırlamış, 116 kurs keçirmiş və bu kurslarda 1847 dinləyici iştirak etmişdir ki, bu da 2007-ci illə müqayisədə müvafiq olaraq, 5 və 16 faiz çoxdur.

Sizləri bir daha əmin etmək istərdim ki, bundan sonra da biznes xidmətləri sahəsində ehtiyaclarınızın tam ödənilməsi, inkişaf etməkdə olan biznesinizin professional tədris və məsləhət xidmətləri ilə təmin olunması üçün göstərdiyimiz xidmətlərin keyfiyyətinin və çeşidinin daim artırılması qayğısına qalacaq və Sizlərə layiqli tərəfdaş olacağıq.

## BİZİM KOMANDA

ABTM-nin bugün tədris bazarında aparıcı yer tutmasının əsas səbəbi, onun yüksək professional ekspertlər komandasına malik olmasıdır. Ekspertlərin böyük əksəriyyətinin bugün banklar və digər təşkilatlarda yüksək vəzifələr tutması, habelə tədris işinin keyfiyyətinin daima artması və tədris sahəsində risklərin daha səmərəli idarə edilməsi üçün ABTM-nin ekspertlər komandası 3 qrupa bölünür. Birinci qrupa ehtiyat ekspertlər daxildirlər ki, onlar ABTM-də daima işləyən menecerlərdir. Onların hər biri bir mövzu qrupu üçün məsul olmaqla yanaşı, məsləhət xidmətləri də göstərirlər. Tədris materialları ABTM-nin menecerlərinin birbaşa rəhbərliyi altında usta ekspertlər tərəfindən hazırlanır. Tədris kursları həm menecer, həm usta, həm də üçüncü qrupa aid olan dərs deyən ekspertlər tərəfindən aparılır.

Davamlı olaraq, ekspertlərinin sayının və keyfiyyətinin artırılması qayğısına qalmağı özünün əsas prioriteti hesab edən, daima inkişaf etmiş ölkələrdən təcrübəli ekspertlər dəvət etmiş və ABTM-nin ekspertlərini təcrübə mübadiləsi üçün səfərlərini təşkil etmişdir. Aparılmış işlər nəticəsində ekspertlər komandasının sayı 70-i ötmüşdür.

## MƏHSUL və XİDMƏTLƏR

ABTM-nin keçən 9 ildə tədris və məsləhəti sahəsində aparıcı mövqeyə çatmasının əsas səbəbi bazarla aktiv işləməsi, tərəfdaşlarının biznes xidmətlərinə artan ehtiyaclarının onlar müraciət etməzdən əvvəl təklif etməsi olmuşdur.

Artıq bu gün ABTM biznes tərəfdaşlarına 139 mövzu üzrə tədris və 13 modul üzrə məsləhət xidmətləri göstərir.

Hesabat ilində ABTM tərəfdaşlarına aşağıdakı tədris və məsləhət xidmətlərini göstərmişdir:

**A. Tədris sahəsində**

- Kommersiya bank işi açıq və korporativ tədris kursları
- Biznesin idarə edilməsi üzrə standart açıq, standart korporativ və xüsusi hazırlanmış korporativ sifarişlə keçirilmiş tədris kursları

**B. Məsləhət xidmətləri sahəsində**

- Strateji planlaşma
- Təşkilati struktur və proseslərin təşkili
- Maliyyə Menecmenti
- İT
- Risklərin idarə edilməsi
- İnsan resurslarının idarə edilməsi və s.

ABTM tədris kurslarını və məsləhət xidmətlərini ən qabaqcıl Qərb texnologiyalarından istifadə etməklə, bu xidmətləri onun tərəfdaşları üçün münasib vaxt, qiymət və şərtlərlə göstərmişdir.

## TƏDRİS FƏALİYYƏTİ

Keçən 9 il ərzində ABTM 986, o cümlədən 2008-ci ildə 116 kurs keçirmiş və onlarda 300-dən artıq bank və təşkilatdan müvafiq olaraq, 12974 və 1847 dinləyici iştirak etmişdir.

Kurslarda orta iştirakçı sayı 2007-ci ildə olan 14 nəfərdən 2008-ci ildə 16 nəfərə çatmışdır. Keçirilmiş kursların 63%-i kommersiya bank işinin, qalan 37%-i isə biznesin idarə edilməsi və fərdi korporativ kursların payına düşmüşdür.

## Kursların Sayı




## Dinləyicilərin sayı




## Orta dinləyici sayı



# MƏSLƏHƏT XİDMƏTLƏRİ

Məsləhət xidmətlərinə 2001-ci ilin sonlarından başlayan ABTM keçən 8 ildə 50-dən artıq məsləhət xidməti layihəsi (25 test layihəsi) icra etmişdir.

Hesabat dövründə ABTM aşağıdakı məsləhət xidməti layihələrini həyata keçirmişdir:

- "Əmrahbank ASC-də korporativ idarəetmə sistemlərinin təkmilləşdirilməsinə məsləhət xidməti" layihəsi-davam edir.
- "ASC Texnikabankda Strateji Planın hazırlanmasına məsləhət xidməti" layihəsi- başa çatmışdır.
- "ASC Turanbankda korporativ idarəetmənin bəzi sahələrində işin təkmilləşdirilməsinə məsləhət xidməti"" layihəsi- başa çatmışdır.
- Bank Standard, Azərbaycan Sənaye Bankı, Turanbank və Əmrahbankın işçilərinin test vasitəsi ilə bilik səviyyəsinin yoxlanılması layihələri -başa çatmışdır.
- Veysəloğu MMC-də maliyyə menecmenti işinin təkmilləşdirilməsinə məsləhət xidməti" layihəsi- davam edir.
- **"**ASC Gəncəbankda korporativ idarəetmə işinin təkmilləşdirilməsinə dair məsləhət xidməti" layihəsi-davam etmişdir.

"FİNCA-Azərbaycan qeyri-bank kredit təşkilatının əsas proqramının strukturunun Azərbaycan Mərkəzi Bankının hesablar planına uyğunlaşdırılması" layihəsi-başa çatmışıdır.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

ABTM-nin uğurlu fəaliyyətinin əsas səbəblərindən biri onun ilk gündən beynəlxalq əməkdaşlıq üzrə səmərəli siyasət aparması olmuşdur.

Keçən 9 ildə ABTM 25 beynəlxalq layihəyə cəlb olunmuş, o cümlədən 9 beynəlxalq layihədə benefisar, 16-ində isə icraçı kimi fəaliyyət göstərmişdir.

Hesabat dövründə ABTM 1 layihədə benefisar, 2 layihədə isə icraçı kimi iştirak etmişdir.

**2008-ci ildə ABTM-nin benefisar olduğu layihə**

*Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşdirilən və ABŞ-ın ACDI/VOCA təşkilatı tərəfindən həyata keçirilən "Maliyyə sektorunun inkişafı vasitəsi ilə KOS-a dəstək layihəsi" (ABTM-nin institusional inkişafı komponenti). Layihə başa çatmışdır.*

**2008-ci ildə ABTM-nin icraçı olduğu layihə**

*a) İslam İnkişaf Bankı maliyyə dəstəyi ilə "Azərbaycan Lizinq bazarının təhlili və yeni lizinq şirkəri üçün Biznes Planın hazırlanması" layihəsi. Layihə başa çatmışdır.*

*b) Almaniya İnkişaf Bankının (KFW) maliyyələşdirdiyi və Beynəlxalq Əməkdaşlıq üzrə Əmanət Bankları Fuondunun rəhbərliyi altında həyata keçirilən "Azərbaycan Kredit Qarantiya Fondu" layihəsi-davam edir.*

Beynəlxalq əməkdaşlığı bundan sonra da inkişaf etdirməklə, ABTM həm bank işi, həm biznesin idarə edilməsi, həm də tədris üzrə qabaqcıl nou-hounun Azərbaycana gətirilməsi missiyasını növbəti illərdə də davam etdirməyi özünün əsas prioritet fəaliyyəti hesab edir.

## 2009-cu ilin HƏDƏFLƏRİ

ABTM 2007-2009-cu illər üzrə strateji inkişaf planına uyğun olaraq, 2009-cu il üçün aşağıdakı işləri həyata keçirməyi nəzərdə tutur:

- "Bank İşinin Əsasları üzrə Avropa Sertifikatı" proqramı üzrə tədris kursları keçirməyə və imtahanlara başlamaq
- Beynəlxalq Sertifikatlaşmış Peşəkar Mühasib (CIPA) proqramının bütün mövzuları üzrə tədris proqramlarının tətbiqinə başlamaq/davam etmək.
- "Risklərin idarə edilməsi" mövzusu üzrə uzunmüddətli tədris proqramının tətbiqinə başlamaq.
- ABTM-nin xidmətlərinin keyfiyyətinə nəzarət sistemini təkmilləşdirmək.

AZ-1000, Azərbaycan Respublikası,
Bakı şəhəri, Zərifə Əliyeva prospekti 35
Tel: (+99412) 497 07 10/11/12
Faks: (+99412) 493 80 02
Elektron ünvan: office@abtc.az
İnternet səhifəsi: www.abtc.az